# Tarixi nailiyyətlərin müəllifi

**Güclü lider insanların dövlətçilik arzularını milli amala çevirir. Xalqı bu amal, ümumi ideya, prinsip və məqsədlər ətrafında birləşdirir və düzgün hədəflərə çatdırır. Bu, dəyişməz qanunauyğunluqdur.**

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən son 20 ildə görülən işlərin, əməli addımların müasir dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirilməsi bugünkü milli inkişafın əsaslarını təşkil edir. Dövlətimizin başçısı müasir baxışları, yanaşmaları, yüksək siyasi məharəti və intellektual davranışları ilə ölkəmizin siyasi mühitinə yeni bir mədəniyyət gətirir. Bu mühitdə yeni standartlar müəyyənləşdirir.

Liderin gücü, nüfuzu həm də onun təsir imkanlarının coğrafi əhatə dairəsi ilə ölçülür. Güclü siyasi liderin fəaliyyətinin təsir dairəsi bir ölkə ilə məhdudlaşmır, bütövlükdə regional, hətta qlobal əhəmiyyət daşıya bilir. Bu baxımdan Prezident İlham Əliyevin həyata keçirdiyi həm daxili, həm də xarici siyasət regionda gedən siyasi, iqtisadi proseslərin axarına həlledici təsir göstərir. Məhz dövlət başçısının liderlik keyfiyyətləri əsasında Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb. Prezident İlham Əliyev ölkəni öndə gedən dövlətlər sırasına yüksəldib.

2003-cü ilin 15 oktyabrında dövlətimizin başçısı ona yüksək etimad göstərərək Azərbaycanın gələcək taleyini etibar etmiş xalqına verdiyi bütün sözləri tutdu. Ölkəmizin milli maraqlarını bu illərdə qətiyyətlə müdafiə etdi, heç bir çətinlik, təzyiq və təhdid dövlət rəhbərimizi bu yoldan çəkindirmədi. Prezident İlham Əliyev uzunmüddətli, hərtərəfli və mükəmməl hazırlıqlar sayəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi. Bayrağımızı Şuşada, Laçında, Xankəndidə ucaltdı. Bununla Azərbaycan xalqının ən böyük arzusunu yerinə yetirdi. Azərbaycan seçicisinin illər əvvəl ona göstərdiyi etimadın, Ümummilli Lider Heydər Əliyevin onun rəhbərliyi ilə milli dövlətimizin gəlib çata biləcəyi nailiyyətlərə əminliyinin nə qədər doğru olduğunu sübuta yetirdi.

Azərbaycan Prezidenti bütün seçkilərdə, başqa rəqabət meydanlarında həmişə öz opponentlərindən güclü olub. Bu da təbii və məntiqlidir. Çünki çoxlarından fərqli olaraq dövlətimizin başçısı öz gücünü hansısa xarici dairələrdən, müəyyən maraq qruplarından deyil, məhz Azərbaycan xalqından alır. Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük" kəlamı xalqın qalib ruhunun aynasıdır. Məhz bu ruhun verdiyi sarsılmaz qüvvə ilə, gələcəyə əminliklə dövlət rəhbərimiz doğma yurdunu, Vətənini inkişafa doğru aparır. Dünyamızda tez-tez yaşanan iqtisadi böhranlara, beynəlxalq təzyiqlərə və başqa qlobal çağırışlara rəğmən Prezidentimizin nümayiş etdirdiyi yüksək qətiyyət, peşəkarlıq və xalqın dəstəyinə arxalanan siyasət Azərbaycan dövlətinin son onilliklərdəki uğurlarının əsas səbəbidir.

## Milli birlik

Azərbaycan Prezidenti ölkəmizdə milli vəhdəti daha da gücləndirib. Cəmiyyətimizə yeni siyasi mədəniyyət gətirib. Siyasi baxışlar arasındakı ziddiyyətlərin faydalı dialoq, sağlam diskussiya məcrasına yönəlməsi üçün münbit şərait formalaşdırıb. Qaragüruh düşüncəni aradan qaldırıb. Vətəndaşlıq məsuliyyətini daha da gücləndirib. Milli həmrəyliyin inkişafına xidmət edən demokratik təcrübə yaradıb. Son illərdə ölkəmizdəki siyasi partiyalar tərəfindən imzalanmış birgə bəyanatlar, müraciətlər uğurlu siyasi dialoqun, xalq-dövlət birliyinin təzahürüdür. Siyasi partiyaların Ali Baş Komandan İlham Əliyevə dəstək ifadə edən birgə bəyanat və müraciətlər imzalaması həmrəylik mühitinin inkişafı ilə yanaşı, dayanıqlı demokratik ənənələrin formalaşmasına xidmət edən mütərəqqi təcrübədir. Partiyaların həmrəyliyi ölkəmizdə mövcud siyasi potensialın yalnız dövlətin inkişafına və milli maraqlara xidmət etdiyini göstərir. Cəmiyyətimizdə sağlam əməkdaşlıq mühitini, siyasi dialoqu təşviq edən Azərbaycan Prezidenti qeyd edir ki, ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz: "Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Mən bunu çox təqdir edirəm. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var".

Azərbaycan Prezidenti etibarlı münasibətlərin formalaşmasına xidmət edən islahatları addım-addım davam etdirir. İqtidar-müxalifət münasibətlərinin sağlam təməllər üzərində inkişafı Prezident İlham Əliyevin dövlət siyasətinin əsas xarakterik xüsusiyyətlərindəndir. Dövlət rəhbərimizin tapşırığı əsasında üzvlərinin sayından, ölkə ərazisini əhatə vəziyyətindən, siyasi çəkisindən və hər hansı digər amildən asılı olmayaraq, Azərbaycandakı bütün siyasi partiyaların rəhbərləri ilə davamlı şəkildə görüşlərin keçirilməsi kifayət qədər faydalı təcrübə kimi demokratik ənənələrin dərinləşməsinə xidmət edir. Bu baxımdan 2005, 2010, 2015 və 2020-ci illərdə ölkəmizdə keçirilmiş parlament seçkiləri də təkamül yolu ilə demokratik ənənələrin formalaşması prosesinin mühüm tərkib hissəsidir.

Azərbaycanın müstəqil parlamentarizm tarixində ilk dəfə olaraq 2020-ci ildə müxalif siyasi partiyalar da qanunvericilik orqanının rəhbərliyində təmsil olunmağa başlayıblar. Milli Məclisin Sədr müavini, komitə sədri və sədr müavinləri vəzifəsinə müxtəlif siyasi partiyaların nümayəndələri seçiliblər. 10 siyasi partiyanın VI çağırış Milli Məclisdə təmsil olunması bilavasitə ölkədə yaşanan demokratik münasibətlərin təzahürüdür.

Azərbaycan Prezidenti rəhbəri olduğu Yeni Azərbaycan Partiyasındakı yenilənmə prosesləri ilə də nümunə göstərir. Ölkəmizdəki başqa partiyalarda da zamanın çağırışlarına uyğun müasirləşmə təcrübəsi yaradır. Prezident İlham Əliyevin qətiyyəti sayəsində Yeni Azərbaycan Partiyasında aparılan islahatlar buna nümunədir. Partiyanın 2021-ci il martın 5-də keçirilmiş VII Qurultayında yeni Nizamnamə təsdiqlənib, İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası, Gənclər Birliyi və Mərkəzi Aparatı formalaşdırılıb. Partiyanın yeni Proqramı qəbul edilib, kadr islahatları aparılıb. YAP-ın fəaliyyətində gənclərə geniş meydan verilib.

## Azərbaycan gəncliyinin lideri

Prezident İlham Əliyev Azərbaycan xalqını təşkil edən bütün sosial qrupların, o cümlədən gəncliyin lideridir. Daim təkmilləşdirilən gənclər siyasəti yeni nəslin ictimai-siyasi həyatdakı rolunun artması, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə kreativ gəncliyin formalaşmasına şərait yaradıb. Gənclərin potensialından səmərəli istifadə olunması müasir, müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental faktorlardandır. Prezident İlham Əliyevin bu təbəqənin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadrlar kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisidir. Bu dəstək və diqqət sayəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi daha da artıb.

Prezident İlham Əliyev Azərbaycan gəncliyinə inanır, yüksək vəzifələrdə onlara etimad göstərir, öz potensiallarını reallaşdırmaq üçün münbit şərait yaradır və ölkəmizin inkişafına mühüm töhfələr verir. Bu gənclər Ümummilli Lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə formalaşmış vətənpərvər, müasir düşüncəli, Vətəninin istiqlalının dəyərini bilən və bu dəyər uğrunda hər cür fədakarlığa hazır olan yeni nəslin təmsilçiləridir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində bu nəslin gücü ilə torpaqlarımızı düşməndən təmizlədi. Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Azərbaycanın itirilmiş torpaqlarının böyük bir hissəsini düşməndən geri almağa nail oldu. Dünya güclərinin öz məkrli oyunlarını oynamaqdan ötrü 2 əsrdir regionda başımızın bəlasına çevirdikləri erməni layihəsini iflasa uğratdı.

## Rasional idarəçilik nümunəsi

Azərbaycan Prezidentinin fəaliyyəti müasir şəraitdə rasional idarəçiliyə mükəmməl bir örnəkdir. Dövlətimizin başçısı Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli gətirib. Məntiqli mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən, siyasi realizmə söykənən fəaliyyət nümunəsi formalaşdırıb. Öz fəaliyyəti və davranışları ilə siyasi sistemimizə həm də milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi təqdim edib. Dövlət rəhbərimizin humanizm ideyalarına və milli dəyərlərə söykənən siyasəti müasir Azərbaycan dövlətini gücləndirir, onların ən yüksək səviyyədə qorunmasına xidmət edir. Məhz bu siyasət sayəsində Azərbaycan bütün dünyada tolerantlıq və mədəniyyətlərin, sivilizasiyaların dialoqu məkanı kimi tanınır. Məhz Azərbaycanın təşəbbüsləri sayəsində multikulturalizm və mədəniyyətlərarası dialoq kimi məfhumların aktuallığı beynəlxalq münasibətlər sistemində də qorunur. Azərbaycanın evsahibliyi etdiyi Bakı Beynəlxalq Humanitar Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, habelə BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu və digər belə mötəbər tədbirlər paytaxtımız Bakını qlobal münasibətlər sistemində nüfuzlu beynəlxalq siyasi meydanlardan birinə çevirib. 2008-ci ildən başlanan və BMT-nin ali rəhbərliyində də təqdir olunan "Bakı prosesi" bütün dünya üçün bəşəriyyətin gələcəyinə, insanların xoşbəxtliyinə xidmət etməyin örnəyini yaradır.

Azərbaycan uzun illərdir ki, bütün dünyada ən etibarlı strateji tərəfdaşlardan biri kimi tanınır və qəbul olunur. Prezidentimiz bu yüksək imici öz öhdəliklərinə sadiqliyi, yüksək məsuliyyəti, verilən sözləri tutması ilə qazanıb. Bütün tərəfdaşlar əmindirlər ki, əgər ölkəmizlə hər hansı anlaşma əldə edilirsə, bu, ən yüksək səviyyədə yerinə yetiriləcək, razılaşmalara sadiq qalacaq. Azərbaycana hər sözünə imzası qədər dəyər verən Lider rəhbərlik edir və ölkəmizin bütün tərəfdaşları uzun illərin təcrübəsi ilə bunun fərqindədirlər.

Beynəlxalq ictimaiyyət Azərbaycan Prezidentinə bu üstün keyfiyyətlərindən başqa, eyni zamanda reallıqlara strateji baxışına, yüksək təhlil qabiliyyəti ilə gələcəyi aydın təsəvvür edə bilməsinə, siyasətə ali dəyərlər gətirməsinə, sülhə, inkişafa, insanın firavan həyatına çalışmasına görə böyük rəğbət bəsləyir. Tarix Prezident İlham Əliyevin zəmanəsinin ən parlaq, ən qüdrətli liderlərindən olduğunu dəfələrlə sübuta yetirib. Azərbaycan Prezidentinin atdığı addımların, yürütdüyü strateji xəttin, müxtəlif məsələlərdə tutduğu mövqeyin, irəli sürdüyü qlobal təşəbbüslərin nə qədər doğru olduğunu göstərib. Ona görə də dövlətimizin başçısının rəyləri, təşəbbüsləri bütün dünyada hər zaman böyük maraqla qarşılanır, həssaslıqla dəyərləndirilir. Azərbaycan Prezidentinin irəli sürdüyü regional təşəbbüslər bir tərəfdən Azərbaycanın möhkəmlənməsinə, digər tərəfdən isə bölgədəki əməkdaşlığın dərinləşməsinə xidmət edir, bütün maraqlı tərəflərə regionun imkanlarından qarşılıqlı şəkildə faydalanmağa şərait yaradır.

Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz 2012-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Onilliklər ərzində həyata keçirilən ardıcıl fəaliyyət sayəsində beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı, torpaqlarımızın işğalı faktı bu qurumların qəbul etdiyi sənədlərlə təsbit olundu. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunun və qüdrətinin bariz göstəricisidir.

## Tarixin doğrultduğu təşəbbüslər

Prezident İlham Əliyevin dünyada sülhü və konstruktiv əməkdaşlığı təşviq edən beynəlxalq təşəbbüsləri qlobal təşkilatların gündəliyinə də daxil edilir. Azərbaycanın təşəbbüsü ilə 2013-cü il oktyabrın 28-də BMT tarixində ilk dəfə olaraq "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda iclasın təşkili, Qoşulmama Hərəkatının Sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsi bunun parlaq nümunəsi idi. 18 noyabr 2021-ci il tarixində BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının Sədri qismində də Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-nin üzv dövlətləri tərəfindən qəbul edildi. Qətnaməyə BMT-nin 126 üzv dövləti həmmüəllif qismində qoşuldu və sonrakı proseslər bu təşəbbüsün nə qədər yerində, vaxtında, dəqiq şəkildə irəli sürüldüyünü göstərdi.

Elə ölkəmizi son onilliklərdə ən böyük nailiyyətlərinə yetirən, tarixin ən güclü Azərbaycanını yaradan əsas amil də hər bir addımın yerində, öz vaxtında-vədəsində atılması və inkişaf proseslərinin ardıcıllığının təmin olunmasıdır. Məhz bunun sayəsində respublikamız son on illərdə əsrlərin sosial-iqtisadi uğurlarını qazanıb. Dünyanın inkişaf mərkəzlərindən birinə çevrilib. Planetimizin əsas nəqliyyat-kommunikasiya qovşaqlarından biri statusunu qazanıb. Bu gün regionla bağlı bütün məsələlərdə Azərbaycanın rəyi, mövqeyi nəzərə alınır. Dövlətimizin beynəlxalq nüfuzu, qlobal proseslərə təsir imkanları getdikcə artır. Azərbaycan dövləti dünyanın ən qüdrətli ordularından birinə sahibdir. Vətən müharibəsindəki qələbəmizin ardınca Azərbaycan dövləti öz maddi imkanları hesabına Qarabağı, Şərqi Zəngəzuru yenidən dirçəldir, bu torpaqları cənnətə çevirir. Dövlətimizin sosial-iqtisadi nailiyyətləri Azərbaycan insanlarının həyat səviyyəsini yüksəldir, sosial rifahını daha da yaxşılaşdırır.

Bütün bunlar Prezident İlham Əliyevin Azərbaycan dövlətinə, xalqına qazandırdığı nailiyyətlərdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*